AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

Əlyazması hüququnda

LEYLA XOSROV QIZI RƏHİMİ

# NƏSİRƏDDİN TUSİNİN «ƏXLAQİ-NASİRİ» ƏSƏRİNDƏ DİNİ-ETİK MƏSƏLƏLƏR

7213.01– "Dinşünaslıq"

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
AVTOREFERATI

BAKI – 2013

**Mövzunun aktuallığı.** Müasir elmi-texniki tərəqqi və qloballaşma şəraitində insan mənəviyyatı, onun intuitiv və intellektual imkanları problemi dünyanın nizamı və cəmiyyətin rifahı baxımından xüsusi aktuallıq kəsb edir. Məlum olduğu kimi, ən müasir texnologiyaları idarə edən bəşər övladı yalnız cisminin deyil, eləcə də ruhunun və mənəviyyatının imkanları müqabilində fəaliyyət göstərir. Dövrün tələbləri dəyişsə də, müxtəlif fəaliyyət növləri ilə məşğul olan insanların həyatında fəlsəfi düşüncələrin, mənəvi-etik problemlərin əhəmiyyəti nəinki azalmamış, əksinə, daha da artmışdır.

Erkən çağlardan başlayaraq, bugünkü günədək yer üzündə zaman-zaman zəngin düşüncələr aləmini formalaşdıran böyük şəxsiyyətlər zühur etmişlər ki, onlar birlik, qarşılıqlı anlaşma, sülh və əmin-amanlığı təmin etmək yollarını araşdırmış, öz əsərləri ilə tarixdə silinməz izlər buraxmışlar. Və belə şəxsiyyətlərdən biri də görkəmli Azərbaycan alim-filosofu Nəsirəddin Tusi olmuşdur.

Nəsirəddin Tusi, onun yaradıcılığı, elmi-siyasi fəaliyyəti, dünyagörüşü, həmçinin əxlaqi və fəlsəfi baxışları Azərbaycan fəlsəfi və ictimai fikir tarixində mühüm yer tutur. Bu dahi mütəfəkkirin insanların düşüncəsinə dərin təsir göstərən baxışları, zəngin irsinin müxtəlif aspektlərdən araşdırılması fəlsəfə tariximizin önəmli vəzifələrindən biri hesab olunur. Tusinin zəngin etik irsi milli əxlaq sisteminin inkişafına ciddi təsir göstərmiş, mütərəqqi dünya etikası xəzinəsinə dəyərli bir töhfə olmuşdur. Macəralarla dolu həyatını təbiət elmlərinə, fəlsəfə, ilahiyyat, məntiq və s.-yə həsr etmiş Nəsirəddin Tusi yalnız Azərbaycan və İran xalqına deyil, ümumiyyətlə, bütün bəşəriyyətə xidmət etmişdir. Bu səbəbdən dahi mütəfəkkirin yaradıcılığı, əsərləri hələ XIV əsrdən başlayaraq araşdırılmış, dünyanın müxtəlif dillərinə, əsasən də Avropa dillərinə tərcümə edilmişdir.

Nəsirəddin Tusinin zəngin irsini dəqiq elmlərə həsr edilmiş sanballı kitablarla yanaşı, dini-fəlsəfi məzmunlu, həmçinin əxlaq və mənəviyyat məsələlərindən bəhs edən əsərlər təşkil edir ki, bugünkü dünyamızda onların tədqiqi böyük əhəmiyyət kəsb edir. Belə ki, qloballaşma prosesinin getdiyi müasir dövrdə bütün planet miqyasında mənəvi-əxlaqi dəyərlərə dönüş, zamanın axarından yaranan bir zərurətə çevrilmişdir. Cəmiyyəti təşkil edən fərdlər arasındakı mənəvi-hüquqi münasibətlər hüquqi qanunlardan daha çox ayrı-ayrı fərdlərin davranışını şərtləndirən mənəvi-əxlaqi dəyərlər tərəfindən idarə olunur. Bu baxımdan mənəvi-əxlaqi çərçivədən kənar cəmiyyətlərdə fərdlər və toplumarası münasibətləri nizamlamaq, demək olar ki, qeyri-mümkün olur. Qloballaşma şəraitində isə, bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün ən mühüm və vacib şərt məhz insanların mənəvi-əxlaqi yüksəlişi hesab oluna bilər.

Həm Şərq, həm də yunan əxlaq elminin təsirini özündə əks etdirən Tusinin əxlaqi baxışlar sistemi çox zəngin olub, çeşidli əxlaq növləri, norma və prinsipləri, mənəvi-əxlaqi dəyərləri bütöv bir əxlaq nəzəriyyəsi altında birləşdirir. İslam əxlaqı əsaslarına istinad edən bu nəzəriyyə uzun illər boyu

tədqiqat obyekti olmuş, lakin alimin yaradıcılığı yalnız fəlsəfi baxımdan araşdırılaraq, onun baxışlarındakı islam əxlaqı məsələləri, dini fəlsəfənin təsiri məsələsi diqqətdən kənar qalmışdır. Bu mövzunun olduqca geniş və əhatəli olduğunu nəzərə alaraq, müdafiəyə təqdim edilən dissertasiya işində Tusinin yaradıcılığında xüsusi yer tutan «Əxlaqi-Nasiri» əsəri alimin əxlaqi baxışlarında islam əxlaqının təsiri baxımından ilk dəfə sistemli şəkildə tədqiq olunur.

**Tədqiqatın obyekti və predmeti.** Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsəri dissertasiya işinin əsas obyektidir. Alimin dini-etik baxışlarının şərhi, həmçinin onun «Əxlaqi-Nasiri» əsərində öz əksini tapmış islam əxlaqı qanunları ilə bağlı fikirlərinin araşdırılması, buna uyğun olaraq bir sıra məfhum və terminlərin şərhi tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda əsas məqsəd VII/XIII əsrdə yaşamış görkəmli alim Nəsirəddin Tusinin həyatı haqqında ümumi məlumat vermək, əsərlərini araşdırmaq, eləcə də alimin dünyagörüşü və dini-fəlsəfi baxışlarını açıqlamaq və şərh etməkdən ibarətdir.

Göstərilən məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Nəsirəddin Tusini yetişdirən dövrün ictimai-siyasi mühitinin qısa xülasəsini vermək;
- Mövzunun tədqiq tarixini araşdırmaq;
- Nəsirəddin Tusinin həyatı haqqında ümumi məlumat vermək;
- Nəsirəddin Tusinin müasirləri, müəllimləri və şagirdləri haqqında məlumat vermək;
- Nəsirəddin Tusinin elmi, siyasi və ictimai fəaliyyəti haqqında ümumi məlumat vermək;
- Nəsirəddin Tusinin əsərləri haqqında yığcam şərh vermək;
- Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsəri haqqında ümumi məlumat vermək;
- Nəsirəddin Tusinin dini-etik fikirlərini şərh etmək;
- İslam əxlaqının əsaslarını şərh etmək və Tusinin «Əxlaqi-Nasiri» əsərini islam əxlaqı baxımından araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi.** Bir çox alim və tədqiqatçılar Nəsirəddin Tusinin fikir və düşüncə dünyasını dəqiqliklə araşdırmış, onun əsərlərini şərh etmiş və bu əsərlərdəki mühüm nöqtələrə toxunmuşlar. Lakin Tusinin əsərlərində, xüsusən də «Əxlaqi-Nasiri» əsərində alimin dini-fəlsəfi fikirləri geniş tədqiqat obyekti olmamış və bu sahədə ayrıca bir araşdırmaya tələbat vardır. Bunu nəzərə alaraq müdafiəyə təqdim olunan dissertasiya işində çalışmışıq ki, Tusinin «Əxlaqi-Nasiri» əsərindəki dini və fəlsəfi fikirləri şərh olunsun, buradakı gizli məqamlara aydınlıq gətirilsin. Araşdırmada Nəsirəddin Tusinin yaşadığı dövrün əsas hadisələri, alimin həyat və yaradıcılığı yığcam şəkildə işıqlandırılmışdır.

Tədqiqat işində əsas mövzu olaraq Tusi düşüncəsində islam əxlaqı ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. «Əxlaqi-Nasiri» əsəri ilə islam əxlaqı arasında əlaqə müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Mövzu üzərində işləyərkən ənənəvi mənbəşünaslıq metodologiyasından, tipoloji təhlil üsulundan və tarixi-müqayisəli yanaşma prinsipindən istifadə edilmişdir.

**Tədqiqatın mənbələri.** Dissertasiyanın hazırlanmasında orta əsr müəlliflərinin tarixi-ədəbi əsərlərindən, təzkirə və başqa qaynaqlardan, fəlsəfənin və əxlaq elminin əməli və nəzəri məsələlərini işıqlandıran çoxsaylı mənbələrdən, fəlsəfi və islami terminologiyanın şərhinə aid əsərlərdən, Nəsirəddin Tusinin əsərləri və onların mövcud əlyazma nüsxələrindən, Azərbaycan, İran, türk, rus və digər xarici ölkə ilahiyyatçı, filosof, tarixçi, şərqşünas və ədəbiyyatşünaslarının mövzu ilə birbaşa və ya müəyyən dərəcədə bağlı tədqiqatlarından və müxtəlif elmi-nəzəri ədəbiyyatlardan istifadə olunmuşdur.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas elmi müddəa və nəticələri respublika daxili və xaricində müxtəlif elmi dərgi və tematik toplularda, eləcə də elmi konfrans materiallarında dərc edilmiş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Hər bir mütəfəkkirin dünyagörüşü mövcud ictimai-siyasi şəraitin, baş vermiş yaddaqalan hadisələrin, sosial-iqtisadi və mədəni amillərin təsiri altında formalaşır və yetkinləşir. Ensiklopedik alim Nəsirəddin Tusinin yaşadığı XIII əsr təkcə Azərbaycan və İran üçün deyil, bütün Yaxın və Orta Şərq dünyası üçün çox ziddiyyətli və kəşməkeşli bir dövrdür. Hülakunun hakimiyyəti altında olan böyük bir ərazidə Azərbaycan xüsusi əhəmiyyət daşıyırdı. Dövlətin paytaxtı əvvəl Təbriz, sonra Marağa olmuşdur. Qüdrətli dövlət yaratmağa müvəffəq Hülaku xanın uğurlu xarici siyasəti nəticəsində 1258-ci ildə İlxanilər– Abbasilər sülaləsini süquta uğradırlar. Bu və digər siyasi-ictimai uğurlarında Hülakunun məsləhətçisi dahi alim-mütəfəkkir Nəsirəddin Tusi olmuşdur.

Dünya elminin parlaq simalarından olan Tusinin həyat və yaradıcılığı bir çox qaynaqlarda – təzkirə, biblioqrafik və ensiklopedik toplularda, əlyazma kataloqlarında, tarixə aid kitablarda işıqlandırılmış, müasir araşdırıcılar isə bu yöndə geniş tədqiqatlar apararaq, alimin dünya kitabxanalarında, əlyazma fondlarında saxlanılan ayrı-ayrı əsərlərini mükəmməl şərhlər və izahlarla nəşr və tərcümə etmişlər.

Azərbaycanda Tusinin həyat və yaradıcılığı, dünyagörüşü fəlsəfi-etik baxışları haqqında çoxsaylı tədqiqat əsərləri yazılmışdır[1]. Tusi irsinin tədqiqi ilə məşğul olmuş Azərbaycan alimlərindən astronomiya, riyaziyyat, həndəsə

[1] Eyvazov F. Nəsirəddin Tusinin ictimai-siyasi və etik görüşləri. Bakı, 1969; Məmmədova A. Nəsirəddin Tusinin dünyagörüşü. Bakı, "Elm", 200; Nəsirəddin Tusi (həyatı, elmi, dünyagörüşü). Bakı, "Elm", 2001; Sultanov R. Nəsirəddin Tusi və onun "əxlaqi-Nasiri" əsəri//Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, "Elm", 1980, s. 3-31.

və s. elmlərin nümayəndələrindən H.Məmmədbəyli, Z.Xəlilov, F.Maqsudov, G.Quliyeva, N.Əbdülqasımovanın, alimin fəlsəfi dünyasını tədqiq edən alimlərdən Z.Məmmədov, Z.Quluzadə, A.Məmmədova, F.Eyvazov, Ə.Əhmədov, Z.Göyüşov və b., eləcə də ictimai-tarixi, filoloji baxımdan araşdırmış alimlərdən isə Z.Bünyadov, R.Sultanov, M. Sultanov, S.Rzaquluzadə, Ə.Fərəcov, Ə.Bayramov, A.Rzayev, Ə.Zəkuyev və b. adlarını çəkmək olar.

Sonrakı paraqraf "Nəsirəddin tusinin həyatına qısa bir baxış" adlanır. Nəsirəddin Tusinin tam adı mənbələrdə Əbu Cəfər Nəsirəddin Məhəmməd ibn Məhəmməd ibn Tusi, ya müxtəsər olaraq Xacə Nəsirəddin Tusi kimi qeyd edilmişdir. Tusinin doğum tarixi haqqında yazan tarixçilər, onun h. 597-ci il, cəmadiül-əvvəl ayının 11-i (=17 fevral, 1201), şənbə günü günəş doğarkən dünyaya gəldiyini qeyd etmişlər [86, 417; 76, 61; 147, 23].

Tusinin nəsli əslən Qumun Cahrud (=Çahrud) məntəqəsindəndir. Alimin doğum məkanı haqqında müxtəlif fikirlər mövcuddur. Tusinin həməsri olan Fəzlullah Rəşidəddin yazır ki, Nəsirəddin Tusi Həmədan şəhərində dünyaya gəlmişdir. Hülaku alimi ismaililərin əsirliyindən azad edərkən, onun qohumları hələ də Həmədanda olmuşlar. Bəzi alimlər isə Nəsirəddinin Tus şəhərində dünyaya gəldiyini, orada böyüdüyünü və bu səbəbdən Tusi ləqəbi ilə tanındığını qeyd etmişlər. Nişapurda təhsilini davam etdirən Tusi daha sonra Rey şəhərinə səfər etmiş, orada olarkən Bürhanəddin Məhəmməd ibn Məhəmməd ibn Əli Qəzvini ilə tanış olmuşdur. Bu dahi alimlə tanışlıq Tusi qarşısında yeni üfüqlər açmış, baxışlarındakı yeniliklər artıq onun bir alim kimi formalaşmasına təkan vermişdir.

Gənc yaşlarında İsmaililərin qalasına dəvət edilən Tusi burada olarkən Qohestan hakiminin istəyi ilə Əbu Əli Miskuyənin (vəf. 421/1030) əxlaq haqqında ərəb dilində yazdığı «Təharətül-Əraq» adlı kitabını fars dilinə tərcümə edir. Bir sıra əlavələrlə fərqli bir əsər yazmağa müyəssər olan Tusi kitabın adını qalanın hakimi Nasirəddininin şərəfinə «Əxlaqi-Nasiri» qoyur. Əsər təxminən 630-632-ci ildə (=1232-1234) tamamlanmışdır.[1]

Tusi macəralarla dolu ömrünün 26 ilə yaxın bir dövrünü İsmaililərin qalalarında keçirmişdir. O, burada İsmaililərin zəngin kitabxanasından istifadə etmiş, öz dahiliyi və ali təfəkkürü ilə tanınmış və məşhurlaşmışdır. Lakin həmin dövr Nəsirəddin Tusinin həyatında xüsusilə ağır dövr olmuşdur. O, 1242-ci ildə bitirdiyi «Şərhi-İşarat» əsərinin sonunda dözülməz vəziyyətdə yaşadığını qeyd edir

Tusi Ələmut qalasında olarkən son İsmaili padşahı Rüknəddin Xurşahın yanında qalmış və bu vəziyyət Hülaku xan 645/1247-ci ildə İsmaili qalalarını fəth edənək, Rüknəddin təslim olanadək davam etmişdir.

Qeyd edək ki, Rüknəddinin təslim olmasında, bununla da qırğınların, bir çox məşhur alimlərinin qətlə yetirilməsinin qarşısının alınmasında Tusinin böyük rolu olmuşdur.

---

[1] محمد تقی مدرس رضوی. احوال و آثار خواجه نصیرالدین طوسی، تهران، ۱۳۷۰ ، ص ۸-۹

1256-cı ilin noyabr ayında Ələmut qalasının fəthindən sonra Nəsirəddin Tusi Hülaku xanın şəxsi məsləhətçisi təyin olunur.

Tusi macəralarla dolu və səmərəli həyatını, parlaq və yorulmaz zəhmətləri ilə islam mirasının qorunmasına və bəşəri maarifin inkişafı yoluna həsr etmişdir. Millətinə dininə və dəyərli xidmətləri ilə yaddaşlara həkk olunmuş bu dahi mütəfəkkir 18 zilhiccə 673-cü il (=1274) bu fani dünyaya vida edir və «Hərəmi-Kazemin»də dəfn olunur. Hülaku və Abaqa xan üzərində fövqəladə nüfuzu olan bu görkəmli şəxsiyyət bir çox elm və ədəb əhlini ölümdən xilas etmiş və onları elmin tərəqqisi uğrunda xidmətə cəlb etmişdir.

Tusi həkim və alim, mahir siyasətçi olmaqla yanaşı, gözəl əxlaqi sifətlərə sahib bir insan olmuş, islami dəyərləri hər bir şeydən üstün saymışdır. Tusinin yaşadığı dövrdən 7 əsrə yaxın bir müddət keçməsinə baxmayaraq, bu gün də onun sözü, kəlamı, elmi elm əhlinin məclis və yığıncaqlarının zinəti, bəzəyidir.

Alimin həyatı haqqında deyilənlərdən belə bir ümumi nəticəyə gələ bilərik ki, o, macəralarla dolu ömrünün böyük bir hissəsini bir məhbus kimi Həsən Səbbahın məmurlarının nəzarəti altında, Ələmut qalasında ağır şəraitdə keçirmişdir. Moğollar qalanı tutduqdan sonra, Hülakunun dövründə, Tusi vəqf mallarına nəzarətlə və rəsədxananın tikintisi ilə məşğul olmuşdur. Moğol hökmdarlarının yanında olan hörmətindən istifadə edərək, bir çox alim və ədibləri müdrikliklə qətldən xilas etmiş, islami kitab və əsərlərin, neçə əsrlik mirasların məhvinin qarşısını almış, şiə məzhəbini elmi cəhətdən qüvvətləndirmi, kəlam elmi və şiəliklə bağlı bir sıra əsərlər də yazmışdır.

Sonrakı bölümdə Tusinin məşhur müasirləri, müəllimləri haqqında qısa bilgilər verilir. Daha sonra alimin elmi, siyasi və ictimai fəaliyyətinə qısa şəkildə nəzər salınır.Tusiyə xas özəlliklərdən biri onun müxtəlif elmlərə yetərincə bələd olmasıdır. O, müxtəlif elmlərdən özünəməxsus, müstəqil düşüncə ilə bəhs etmiş, hər yerdə Haqq və həqiqəti izləmiş və haqq sözü hər zaman möhtərəm bilmişdir.

Tusi ruhaniləri və alimləri öz ətrafında toplayaraq onların istər hakim dairələrdə, istərsə də sadə camaat arasında, ictimai və elmi etibarını yüksəkliyə qaldırmış və fəal siyasi qrup yaratmağa nail olmuşdu. Tusinin xidmətləri sırasında Marağa rəsədxanasının təsisi mühüm yer tutur. Alim astronomiyanın köməyi ilə gələcəkdən xəbərdar olmaq arzusunda olan moğolların xürafatçı düşüncələrindən istifadə etməklə mühüm elmi-tədqiqat mərkəzi olan Marağa rəsədxanasının təməlini qoymaqla nəinki xarabaya çevrilməkdə olan Vətənini xilas etmiş, həmçinin müxtəlif qövm və firqələrə məxsus alim və sənətkarları ətrafında toplayaraq, Şərq və Qərb elmlərini yeni, mükəmməl bir qəlibə salmış və elmin inkişafında müstəsna rol oynamışdır.

Tusinin digər xidmətlərindən biri də Marağa rəsədxanasında əzəmətli bir kitabxana yaratması olmuşdur. Bu kitabxanada moğolların Bağdad, Dəməşq, Mosul, Xorasan və bir sıra digər elm mərkəzlərini qarətlərindən

sonra normal vəziyyətdə qalmış yüz minlərlə nəfis və dəyərli əlyazma kitabı saxlanılırdı. Tusi xüsusi təyin olunmuş məmurlarını ölkənin dörd bir yanına göndərərək, rəsədxana işlərində faydalı ola biləcək kitabları satın aldıraraq rəsədxana kitabxanasına gətirtdirirdi.

Tusinin rolu yalnız şiə məzhəbinin yayılması və Marağa rəsədxanasının təsisi ilə kifayətlənmir. Bu dahi Azərbaycan aliminin elm tarixinə ən böyük xidmətlərindən biri moğol istilası və taracından qaçaq düşmüş elm əhlini öz himayəsi altına alması olmuşdur. Belə ki, moğolların hücumu səngidikdən sonra islam dünyasının müxtəlif guşələrində miskin hala düşmüş alim və sənətkarlar Tusinin hakim dairələrdə etibar sahibi olmasını nəzərə alaraq, onun himayəsinə sığınmaqla təkcə canlarını xilas etməmiş, həmçinin sonradan öz sevimli peşələri ilə məşğul olmaq şəraiti əldə etmişlər.

Növbəti paraqraflarda Tusinin elmi-tarixi xidmətləri və şəxsiyyəti ilə bağlı qaynaqlarda verilən bilgilər nəzərdən keçirilir, daha sonra isə alimin başlıca əsərləri haqqında ümumi bilgilər verilir.

Tusi əsərlərinin böyük qismini ərəb, bəzilərini də – təxminən 30 əsərini – fars dilində yazmışdır. Risalələrinə gəldikdə isə, alimin «Məarif-i Osmani» çapxanasında 2 cilddə, nəşr edilmiş risalələr toplusuna 16 risalə daxil edilmişdir. Həmçinin Tusinin bir sıra əsərlərinə çox sayda şərh, haşiyə, haşiyəyə haşiyə, şərhə şərh yazılmışdır və bu şərh və haşiyələrin sayı 30-u keçir. Alimin əsərləri çoxsaylı olmaqla bərabər, həmdə çoxşaxəlidir. Bu baxımdan onun əsərlərini 3 qismə ayırmaq olar:

a.Nəzəri hikmətə aid olanlar: «İsbati-vacib», «Cəbrü qədər», «Risalə fin-nəfy vəl-isbat» və b.;

b.Əməli hikmətə aid olanlar: «Əxlaqi-Nasiri», «Nəsihətnamə», «Əxlaqi-Mühtəşəmi»;

c.Riyaziyyat, astronomiya, təbiət və dini məsələlərə aid olanlar: «Meyarül-əşar», «Həlli-müşkülati-müiniyyə», «Camiyül-hesab», «İnikasüş-şüəat və enetafha», «Cəvahirnamə» və s. Alimin məşhur əsərləri bunlardır:

«Şərhül-İşarat» – Əbu Əli İbn Sinanın «İşarat»ına yazılmış şərhdir. Fəlsəfə və məntiqdən bəhs edən bu əsəri alim 20 il müddətinə yazmışdır. Fəxrəddin Razi öz şərhlərində İbn Sinanın «İşarat»ını tənqid etmiş, Nəsirəddin Tusi də öz şərhi ilə İbn Sinanın müdafiəsinə qalxmışdır.[1] Bəzi tədqiqatçılara görə, Tusinin fəlsəfi isbat və müdafiələri olmasaydı, fəlsəfə elminə şübhə və bir sıra təkziblər böyük zərbə vura bilərdi. «İşarat» əsəri Tusinin bu növ təsdiq və isbatlarına bir nümunə hesab olunur.

«Təcridül-etiqad» –Kəlam elmindən bəhs edən bu əsər Tusinin ən məşhur və dəyərli əsərlərindən hesab olunur. İslami əqidələrin əsasları və onların müdafiəsinə aid olan kəlam elmində Tusi böyük rol oynamışdır. Alim bu əsəri ilə moğolların hücumundan sonrakı İranda şiə kəlam elminin əsasını qoymuşdur.

«Övsafül-əşraf» – kiçik həcmli risalədir. Seyrü süluk və sufilərin əxlaqı haqqında olan bu əsəri Tusi "Əxlaqi-Nasiri"dən sonra yazmışdır.

---

[1] محمد تقی مدرس رضوی. Göstərilən əsəri, s.35-44

«Qəvayidül-əqayid» – kəlam sahəsində yazılmış dəyərli əsərlərdəndir.

«Əxlaqi-Nasiri» – Tusinin bu əsəri Şərq aləmində əxlaq haqqında yazılmış ən məşhur əsərdir.

«Adabül-mütəallimin» – elm kəsb etməyin ənənə və yolları, tələbə və müəllim münasibətləri haqqında ilk əsərdir. Əslində bu əsər tələbələrə dərs oxumaq qaydalarını öyrədir.

«Əxlaqi-Möhtəşəmi» – Tusi bu əsərini illər boyu yanında olduğu Nasirəddin ibn Əbi Mənsur Möhtəşəmin şərəfinə yazmışdır.

«Cəvahirül-fərayiz» – fiqhə dair yığcam və müxtəsər əsərdir.

«Etiqadiyyə» risaləsi – hər bir şiə müsəlmanın riayət etməli olduğu vacib etiqad və ehkamlar haqqındadır.

Dissertasiyanın ikinci fəsli "İslamda əxlaq" adlanır və burada əxlaq elminə ümumi nəzərə salınır və onun islamdakı yeri müəyyənləşdirilir.

Əxlaq anlayışının tarixi bəşər övladının tarixi qədər qədimdir. Əxlaqla bağlı düşüncələr hələ e.ə. VI-V əsrlərdə yaranmış, Pifaqor (e.ə.580-512), Empedokl (e.ə.490-430) və digər alimləri çox maraqlandırmışdır. Əxlaqın ilk sistemli təlimini elmə Aristotel gətirmişdir. Onun fikrincə, hər kəs «yaxşı»ya çatmaq istəyi ilə yaşayar və bu yolda bütün məqbul hərəkətləri icra etmək məcburiyyətindədir. Quran əxlaqa dair bir çox nəzəri prinsiplər və əməli qaydalar gətirmişdir. İnsanı ən gözəl bir biçimdə yaradaraq ona özündən ruh üfürən Uca Yaradan gözəl əxlaqı tamamlamaq üçün bir peyğəmbər göndərmişdir. O da Qurani-Kərimi öz əxlaqının əsası etmiş, ümmətin ən xeyirlisinin əxlaqca ən gözəl olduğunu xəbər vermişdir.

İslamda əxlaq fəzilətinin meyarı insanın həyat hədəfindən qaynaqlanır və insanın hədəfi ilahi məqama yaxınlaşmaq olduğu üçün insanı bu hədəfə yaxınlaşdıran hər əməl əxlaqi dəyərlərə malikdir. Bu əmələ "fəzilət" deyilir. Bu baxımdan zahirdə yaxşı və layiqli olanəməl insanı yüksək kamala yaxınlaşdırmazsa, islam əxlaqı baxımından dəyərsiz və mənasızdır. İslam əxlaqında hər kəs fikri və mənəvi yüksəkliyin hər bir mərtəbəsində ondan öz dərkinin bacarığına uyğun olaraq bəhrələnə bilər. Bu, islam təliminə görə, hər mərhələyə və hər kəsə aiddir və çox mühüm bir məsələ hesab edilir.

Əxlaq bəşər övladının əxlaq qaydaları kimi qəbul etdiyi bir silsilə xislətlər, səciyyəvi xüsusiyyətlər və kəsb olunmuş adətlərdən ibarətdir. Əslində əxlaq insan ruhunun vəziyyətini üzə çıxarır. Əxlaq elmi xalqla ünsiyyət elmindən ibarətdir və bu elm də hikmətin bir bölümüdür. Bunu əxlaqın saflaşdırılması və «hikməti-xəlqiyyə» də adlandırmışlar[1].

Nəsirəddin Tusi əxlaq elmini belə tərif edir: «Əxlaq elmi insanın öz iradəsi ilə həyata keçirdiyi bütün hal və əməllərini gözəl və bəyənilən edən necə təbiət və xasiyyət kəsb edə biləcəyini göstərən elmdir»[2].

Fəslin ayrıca bir bölməsində əxlaq elminin faydası, hədəfi və məzmunu ilə bağlı məsələlər təhlil olunur.

---

[1] دهخدا علی اکبر، لغت نامه، دهخدا، جلد ۱، ناشر موسسه لغت نامه دهخدا تهران ص ۱۲۹۷

[2] مدرسی محمدرضا، فلسفه اخلاق. مصباح یزدی، محمدتقی، قرآن در آیینه نهج البلاغه، انتشارات موسه آموزشی و نشر کتاب، تهران، سال 1360 ش. 6 جلد

Əxlaq elminin faydası nəfsi paklaşdırmaq, onu rəzil sifətlərdən təmizləyib gözəl və bəyənilən sifətlərlə bəzəməkdən ibarətdir. Buna «əxlaqın təhzibi», yəni əxlaqın saflaşdırılması deyilir. İslam baxımından əxlaq elminin hədəfi insanın əbədi səadəti və kamalıdır, yəni Allaha yaxınlaşmadır. Çünki səadət mərtəbəsinin sonu insanın öz sifətləri ilə Pərvərdigara oxşamasıdır. Allah-taala bütün sifətlərin mərkəzində dayandığı üçün bütün gözəl və bəyənilən sifətlər Ondandır. Əxlaq elmi, kitab və sünnəyə və ağıla söykənərək insanı ən yüksək bir kamilliyə çatdırmaq üçün lazımlı qaydaları və əsasları göstərər, vicdan, vəzifə, məsuliyyət, xeyir və şər, fəzilət kimi əsas anlayışlar haqqında vacib olan məlumatları verər. Ruhun xəstəliklərdən qorunması və müalicəsi yollarını göstərər[1].

Fəslin sonrakı bölməsində islamda nəfs məsələsi araşdırılır.

İslam dini insanın tərbiyəsi, xüsusən də əxlaqi tərbiyəsinə çox ciddi münasibət bəsləyir və daim diqqətdə saxlayır. Bu diqqət o səviyyədədir ki, heç bir şəraitdə əxlaqi tərbiyə yaddan çıxmır, diqqət mərkəzindən kənarda qalmır və əxlaqi tərbiyədə ən gözəl və təsirli üsullardan istifadə edilir. İnsan daim öz nəfsini nəzarət altında saxlamağı bacarmalıdır. İslam dünyasında, islam əxlaqında bu, çox mühüm bir məsələdir. İnsan övladının ən böyük düşməni onun daxili dünyasında yuva salmış «mən»idir. İslama görə hər bir müsəlman üçün iman hasil etməkdən sonra heç bir məsələ əxlaqın təhzibi qədər əhəmiyyətli deyildir. Xüsusən də, iman əhli üçün bu böyük cihad yolunda irəliləməkdən daha şirin və daha fəzilətli bir əməl mövcud deyil. İnsanın özünü tanıması ilə onda kamala yetmək, əxlaqını saflaşdırmaq və rəzil sifətləri dəf etmək şövqü yaranar. Çünki insan öz həqiqətlərini anladığı zaman dərk edir ki, onun həqiqəti mələkut aləmindən cismani aləmə enmiş bir cövhərdir. Bu səbəbdən də nəfsinin tərbiyəsi ilə məşğul olmağa başlayır və tədricən layiq olduğu şərif mənzili qət etmiş olur.

İnsan özünü tanımalı və bilməlidir ki, o, iki bədəndən təşkil olunmuşdur: zahiri bədən (cism) və nəfs. «Cism» özü də bir neçə şeydən – ət, dəri, sümük, damar, piy və s. ibarətdir. «Cism» bu dünyaya – cismaniyyət aləminə aid olan məxluqatın cinsindəndir. Digəri isə «nəfs»dir ki, ona «ruh», «can», «əql» və ya «qəlb» də deyirlər. Bu elə bir cövhərdir ki, mələkut aləmindən ayrı və mələklərin cinsindəndir. Bu nəfsi zahiri gözlə görmək mümkün deyildir. Bunun üçün bəsirət gözünün açılmasına, batini bəsirətə ehtiyac vardır. Bu, həmin insan həqiqətidir. Cism nəfsin əlində lazımi işlərin icrasını yerinə yetirən bir alətdir. Nəfs isə mücərrədat cinsindən olduğu üçün bu aləmdə həqiqətə yetişə bilməz. Əllamə Təbatəbai (1902-1981) bu barədə belə fikir yürüdür: «Nəfs» dedikdə insaniyyət nəfsi və can nəzərdə tutulur”[2].

Bəşər övladı nəfsin təzkiyəsi, saflaşdırılması ilə özündə ilahi sifətləri təcəlla edəcək mərhələləri bir-birinin ardınca qət etməklə, öz həqiqətini, sonra da ilahi həqiqəti anlarsa, kamillik mərtəbəsinə yüksələr və ilahi nura qərq olar.

Fəslin növbəti paraqrafında **Qurani-Kərimə görə nəfsin** növləri araşdırılır.

---

[1] İslam əxlaqı. Bakı: “Şərq-Qərb”, 2011, s. 15-16.

[2] ببستی، ابوحاتم محمد بن حبان، مشاهیر علمایالمصار، دار الکتب العلمیه، بیروت، بی تا. 255 ص.

Tusi insan nəfsini üç mərhələyə bölürlər ki, Qurani-Kərimdə də buna işarə edilmişdir: «nəfsi-əmmarə», «nəfsi-ləvvamə» və «nəfsi-mütməinnə» Qurani-Kərimin «Yusif» surəsinin 53-cü ayəsi «nəfsi-əmmarə»yə işarədir:

وَمَا أُبَرِّئُ نَفْسِي إِنَّ النَّفْسَ لَأَمَّارَةٌ بِالسُّوءِ إِلَّا مَا رَحِمَ رَبِّي إِنَّ رَبِّي غَفُورٌ رَحِيمٌ

«... Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər ...». Yeri sinə olan «nəfsi-əmmarə»nin 10 sifəti vardır: cəhalət, qəzəb, hikkə, qəhr, təkəbbür, kin, həsəd, xəsislik, küfr, nifaq. Əmmarə nəfsini öldürməyən haqq yoluna gələ bilməz[1]. «Nəfsi-ləvvamə»: «ləvvamə» sözü «qınayan», «məzəmmət edən», «danlayan» mənasını verir. Üzəri incə pərdə ilə örtülü olan «nəfsi-ləvvamə» özü-özünü günahlarına görə danlayar, tövbə edər və peşmançılıq çəkər. Bu nəfs qəlbin nuru ilə saflaşmağa meyill edər. Qurani-Kərimin «Qiyamət» surəsinin 2-ci ayəsi «nəfsi-ləvvamə»yə işarədir:

وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ

«And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə!»

Yeri qəlb olan «nəfsi-ləvvamə»nin 10 sifəti vardır: zöhd, təqva, vərə, bəndəlik, namaz, oruc, Həcc, ümrə, zəkat, cihad[2].

«Nəfsi-mütməinnə»: «mütməinnə» sözü «inamı olan», «arxayın», «xatircəm», «asudə», «rahat» mənasını verir[3]. Üzəri yəqinlik nuru ilə qəlbdə hasil olmuş işıqlı pərdə ilə örtülü olan «nəfsi-mütməinnə» Haqqa yönəliş mərhələsidir. Bu mərhələdə ruh artıq təkmilləşmiş, üsyankar nəfsi ram etmiş, kamil təqva məqamına çatmış və məsuliyyət hissinə yiyələnmişdir.

Abdullah Ənsari «nəfsi-mütməinnə»ni itaət, riyazət, təhzib və paklıqdan sonra Allahın xitab etdiyi nəfs bilir ki, bu «nəfsi-mütməinnə» öz Allahına doğru dönər və həm Allah ondan, həm də o Allahdan razı olar.

Allah-taala öz bəndələrinə 4 batini qüvvə bəxş etmişdir ki, onlar insana maddi həyatlarını sürdürərkən, öz daxilində ilahi və ruhani qüvvələri canlandıraraq ram etməyə və kamillik mərtəbələrini qət etməyə yardım etsin. Bu qüvvələr – ağıl, ya şüur, şəhvət, qəzəb və vəhmdir.

Fəslin üçüncü paraqrafında islamda səadət məsələsi təhlil olunur.

Əxlaq və əxlaq fəlsəfəsində ən mühüm məsələlərdən biri «səadət»dir. Pis və qeyri-məqbul sifətləri özündən uzaqlaşdırmaqla, yaxşı və bəyənilən sifətlər qazanmaqla hər iki aləmdə yüksək səadətə yetişmək mümkündür. Səadət əldə etmək istəyən kəs iki mühüm amili – yaxşı, gözəl sifətləri («fəzayel» – fəzilətlər) və pis, qeyri-məqbul sifətləri («rəzayel» – rəzil sifətlər) tanımalı, onları bir-birindən ayırmağı bacarmalı, özündə fəzilətləri inkişaf etdirərək, rəzil sifətləri özündən uzaqlaşdırmalıdır. Əxlaq elmi bizə nəfsin rəzil sifətlərdən təmizlənməsi və onların yerini gözəl sifətlərə verməsi yollarını öyrədir ki, bunun nəticəsində insan əbədi xeyir və səadətə çata bilər. Şəhid Mürtəza Mütəhhəri «səadət» sözünü belə mənalandırır: «Səadət» sözü hərfi mənada

---

[1] Göyüşov Nəsib. Quran və irfan işığında. Bakı, 2004, s.202.

[2] معین محمد، فرهنگ فارسی، جلد ، تهران، ، ص ، همو، التفسیر المبین، ناشر: بنیاد بعثت، قم، بی تا. 808ص

[3] عیاشی، محمد بن مسعود، تفسیر العیاشی، چاپخانه علمیه تهران، 1380ق. 2 جلد.

«kömək» mənasını daşıyır, lakin insanlar arasında «xoşluq», «rahatlıq» kimi işlənir[4]. Əllamə Təbatəbai «Təfsirül-mizan» əsərində «səadət» sözünə belə məna verir: «Səadət» vücudu üçün xeyir olan hər bir şeyə nail olmaqdır. Yəni onun kamalının vasitəsi və müqəddiməsi olan şeyə yetişmək. Səadət bədən (cisim) və ruhdan ibarət olan insanda bir xeyirdir ki, insanın ruhi və cismi qüvvələri bu xeyiri tələb edər. Yəni, səadət insanın əldə etdiyi və ləzzət aldığı bir şeydir[1].

İnsan şəhvət və qəzəb pərdələrini özündən uzaqlaşdırmalı, öz vücudunda Allahı zikr və Allahın xatırlanması üçün şərait yaratmalıdır ki, tədriclə son kamala və ilahinin əzizi və sevimlisi məqamına çatsın və Allah xofu, Allah qorxusu onun vücudunda öz yerini tutsun. Bu barədə Peyğəmər belə buyurmuşdur: Əgər hikmətin ən yüksək həddi Allah xofudursa, bu xof insan üçün o zaman kamil surətdə hasil olar ki, tam mərifətlə ilahi əzəmətini dərk etmiş olsun[2]. Əxlaqın əsası nəfsin rəzil sifətlərdən təmizlənməsi və onların yerini fəzilətli xüsusiyyətlərin tutmasıdır. İnsanın ixtiyari rəftarı, danışığı və əməllərinin məqsədi onun xeyir və səadətə qovuşmasıdır.

Daha sonra səadət və şəqavət əhlinin səviyyələri təhlil olunur.

Həqiqi səadət insanın nəzəri və əməli qüvvə kamalına nail olmasıdır. Üç qüvvədə: «şəhvani», «qəzəb» və «tədbir» qüvvələrində orta yolu tutanlar nəticədə bir çox digər fəzilətləri əhatə edən iffət, şücaət və hikmət fəzilətinə sahib olar və bu üç fəzilətin cəmi olan  ədalət fəzilətinə bürünər. Buna «əməli qüvvənin kamalı» deyilər. Nəzəri qüvvənin kamalı isə insanda kamil surət və aqil nizamın özünü göstərməsi və onu əqli aləmə dəyişməsidir[3].

Səadət – əqli ləzzətlərə yetişməkdir. Əqli ləzzətlərin keyfiyyət və kəmiyyət baxımından mərtəbələri olduğu kimi, səadətin də mərtəbələri vardır. Səadətin mərtəbələri də səadət əhli kimi müxtəlifdir, belə ki səadət əhli hamısı bir mərtəbədə qərar tutmamışlar.

Nəfsin öz kamalına çatmaması iki şeydən qaynaqlanır: ağılın nöqsanı və nəfsdə kamala zidd olan əmrlərin mövcudluğu. İbn Sina kamala yetişməyənlərin nəfslərinin istedadın nöqsanından qaynaqlandığını bildirir. Bunu «bülh» adlandıran alim onları əzabdan uzaq bilir, belə ki, əzab kamala yetişməyə can atan nəfs üçün hasil olar, o zaman meydana gələr ki, fərd öz kamalatından agah olar.

Fəslin ayrıca bir bölməsi də İslam əxlaqında məhəbbət məsələsinin təhlilinə həsr olunmuşdur.

Məhəbbət və ya sevgi insanın təbii və əsas ehtiyacıdır ki, insanı tənhalıqdan uzaqlaşdırar və xoşhal edər. Məhəbbət ruh sağlamlığının ən mühüm amilidir, onun olmaması ruhi pozuntulara səbəb olar. İslam dini insan şəxsiyyətinin formalaşması, tərəqqisi üçün mürəbbi və müəllimlərə körpələrə, uşaqlara qarşı məhəbbət və mehribanlığı əmr edir. Məhəbbətin  böyük

---

4 رامیار، محمود، تاریخ قرآن، انتشارات امیر کبیر، تهران، چاپ پنجم، 1380ش. 730ص.

1 صالحی نجف آبادی، نعمت الله، عصای موسی، ناشر: امیدفردا، تهر انفچاپ دوم، 1380ش. 224ص.

2 کشی، محمدبن عمر، رجال الکشی، اتشارات دانشگاه مشهد، 1348ش. 35+616+343 ص.

3 کشی، محمدبن عمر، رجال الکشی، انتشارات دانشگاه مشهد، 1348ش. 35+616+343ص.

özəllikləri vardır. Heç bir üsul insanın tərbiyəsində məhəbbət kimi təsirli ola bilməz, ən doğru və yaxşı nəticə verən tərbiyə məhəbbət vasitəsilə həyata keçirilir. Məhəbbətin təsiri tərbiyədə əzəmətli və müyəssərdir və bu yolla həyata keçirilən tərbiyə ən yaxşı tərbiyədir.

Məhəbbət ruhi sağlamlıq və insanın psixiki tarazlığının mühüm amilidir. Şəxsiyyətin möhkəmliyi, insan rəftarının doğru olması müəyyən qədər həyatda gördüyü məhəbbətə bağlıdır. Məhəbbətlə dolu ailə mühiti insanda mehribanlığa və fəzilətlərin inkişafına səbəb olar. Məhəbbətlə dolu, mehriban bir mühitdə böyümüş insan yüksək əxlaqlı bir şəxsiyyət kimi yetişir, digərlərini də sevməyi öyrənir və cəmiyyətdə insani rəftara sahib olar. Tərbiyədə məhəbbətin əhəmiyyəti bundan ibarətdir ki, məhəbbət insanda itaət yaradar və özünü digərindən üstün görməməyə və yoldaşlığa səbəb olar.

Fəslin beşinci paraqrafı "İslam fəlsəfəsi baxımından mənzil (ailə) qurmaq" adlanır. Evin qurucularından olan qadının evlilik həyatı, onun həyat yoldaşı qarşısında vəzifələri, qadının və evin digər üzvlərinin səadəti haqqında, övladlar, onların tərbiyəsi, övladların ən fazili, həmçinin elm, danışıq, yemək, yatmaq, geyinmək kimi əməlləri haqqında da çox dəyərli fikirlər söylənmişdir. Aristotelin əsərlərində, bu mövzu ilə əlaqədar əsasən, dünyəvi səadətə yetişmək üçün tənzim olunmuş fikirlər verilmişdir[1].

Farabi də mənzil və ailə qurmaq yolları və qanunlarından bəhs etmiş, şəhəri (ölkəni) və ailəni insanın bədən üzvlərinə bənzətmişdir[2]. Əbu Əli Sina «əs-Siyasət» kitabını mənzil (ailə) qurmaq məsələsinə həsr etmişdir. Bu əsərdə cəmiyyətşünaslıq, padşahların, valilərin, pul sahiblərinin siyasəti haqqında da fikirlər verilmişdir.

Türk dilində bu mövzuda əsərlərdən «Əxlaqi-əlayi» və «Əxlaqi-aləmara»nı əsərini missal göstərə bilərik. XI/XVII əsrdə yazılmış bu əsərlərin hər ikisində «Əxlaqi-Nasiri» və «Əxlaqi-Cəlali» əsərlərindən istifadə edilmişdir.

Fəslin sonuncu – altıncı paraqrafı "İslam baxımından siyasət" adlanır.

İmam Qəzali «siyasət»i bu dünyada və axirətdə insanın mənəvi və maddi məsələlərini əhatə edən yeganə elm hesab edir[3]. Müasir mütəfəkkirlər sırasında Şəhid Sədr siyasətin tərifi ilə bağlı qeyd edir ki, siyasət doğruluq və sədaqətə söykənir. Siyasət insana və cəmiyyətə rəhbərlik vasitəsidir və onun dünya və axirətlə bağlı hədəfləri vardır.

Ədalət, əxlaq fəziləti, bərabərlik və azadlıq kimi mövzu və bəhslər siyasi fəlsəfənin əsas mövzuları olaraq insanın mahiyyəti və onun cəmiyyətdə rolu ilə

---

1 ابن فتيبه دينورى، ابو محمد عبدالله بن مسلم، الامامه و الساسه المعروف بتاريخ الخلفاى، تحقيق على شيرى، بير وتريالدار الاضواء، ط الاولى، 2.1990/1410 جلد در 1 مجلد، 308ص.

2 طبرسى، فضل بن حسن، مجمعالبيان فى تفسير القرآن، با مقدمه محمد جوادبلاغى، انتشارات ناصر خسرو، ، سال 1372ش. 10جلد در 5 مجلد. تهران ،چاپ سوم

3 طبرانى، سليمان بن احد، المعجم الكبير، تحقيق: حمدى بن عبدالحميد سلفى، مكتبه العلوم والحكم، موصل، چاپ دوم، 1401ق-1983م. 25 جلد.

əlaqəlidir. Siyasi fəlsəfəyə aid ən qədimi və eyni zamanda ən mühüm əsərlər Platon (Cümhuriyyət) və Aristotelə (Siyasət) məxsusdur[4].

İslam monoteist dinlər arasında ən siyasi dindir. Onun əsasını ibadətdən sonra bəşəri cəmiyyətin bünövrəsini möhkəmlətmək təşkil edir. İslam təlimlərində əməli hikmət, mənzil qurulması və ölkə idarəetməsi haqqında geniş şərhlər verilmiş, qayda-qanunlar yaradılmışdır. İslami baxımdan əməli hikmətin əsası və istinadı əvvəlcə Qurani-Kərim, sonra hədislər, rəvayətlər və islam müqəddəslərinin həyat tərzi və əməlləridir. Islam dini xüsusi bir siyasi nizama malikdir və onun mənəvi həyatı heç zaman siyasətdən ayrı olmamışdır. Çünki «İslam digər dinlərlə müqayisədə yalnız bir din deyil, bəlkə bir dövlət quruluşu olmuş və onun siyasi-hüquqi nəzəriyyəsi müxtəlif formalarda icra olunmuşdur. İslamın peyğəmbəri (s) təkcə bir peyğəmbər deyil, Mədinəyə hicrət zamanından müsəlmanların siyasi rəhbəri olmuşdur. Bu yolla islam dini başlanğıcdan həm dini, həm də siyasi hərəkat olmuşdur»[5].

Islam dininin siyasi fəlsəfəsində əməli hikməti üç qismə ayırırlar: 1) «Adabün-nəfs» ya zatın siyasəti; 2) Mənzil hikməti – bura mənzilin yaxşı qurulması üçün təyin edilmiş üsullar məcmuəsi daxildir; 3) İctimai fəlsəfə – buna şəhərlərin (ölkələrin) quruluş formaları, qurulması haqqında araşdırma və mütaliə aiddir ki, burada «Mədinəyi-fazilə» bir nümunə olaraq əsas götürülür. Belə bölümə «Əxlaqi-Nasiri» də də rast gəlirik. Tusi əsərin üçüncü məqaləsində ölkə (şəhərləri) idarəetmə qaydalarından bəhs edərkən insanların mədəniyyətə ehtiyaclarının səbəbləri, məhəbbətin fəziləti, ictimaların növləri, hökmdarların siyasəti və s. mətləblərə toxunmuşdur.

Dissertasiya işinin üçüncü fəsli "Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində dini-etik məsələlər" adlanır ki, bu məsələ üç paraqrafda araşdırılır. Öncə Tusinin bu əsəri haqqında ümumi bilgilər verilir və əsərlə bağlı araşdırmalar nəzərdən keçirilir.

"Əxlaqi-Nasiri" Tusi tərəfindən ən azı üç dəfə yenidən işlənmişdir. Birinci dəfə 1232-33-cü illərdə Qohistan hakiminin təkidi ilə onun adına yazılmış, ikinci dəfə 1254-55-ci illərdə İsmaililər məğlub edildikdən sonra, üçüncü dəfə isə təxminən 1272-73-cü illərdə Əbdüləziz Nişaburinin istəyi ilə yenidən nəzərdən keçirilmişdir. Əsas obyekti insan və onun mənəviyyatı olan «Əxlaqi-Nasiri» ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əsər yeddi yüz ildən artıq bir müddət ərzində Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapmışdır. Bu əsərə çoxsaylı şərhlər və təqlid yolu ilə əsərlər yazılmışdır. «Əxlaqi-Nasiri» haqqında müxtəlif məqalələr, kitablar yazılmış, tədqiqatlar aparılmış, müxtəlif fundamental əsərlərdə Tusinin bu əsərinə və müəllifin dini-fəlsəfi, əxlaqi baxışlarına toxunulmuşdur. Fəslin ilk paraqrafında Tusinin "Əxlaqi-Nasiri" əsərindəki dini-fəlsəfi baxışları təhlil olunur.

---

[4] ابن عساکر، ابوالقاسم علی بن الحسن بن هبه الله، تاریخ مدینه دمشق و ذکر فضل ها و تسمیه من حلها من الاماثل او اجتاز بنواحیها من واردیها و اهلها، بررسی و تحقیق علی شیری، دار الفکر اللطباعه والنشر و التوزیع، چاپ اول ریالبیروت 1417ق-1996م. چندین مجلد (67جلد)

[5] حکیم، السد محمد باقر، علوم القرآن، ناشر: مجمع الفکر الاسلامی، چاپ ششم، 1425ه.ق. 544ص.

«Əxlaqi-Nasiri»də haqqında danışılan mətləblərə Tusidən əvvəlki alimlərin də kitablarında rast gəlinir və Tusinin haşiyə, izah səciyyəli əlavələri, azdır. Əsər «Müqəddimə və kitabın yazılması səbəbi», «İlk qeydlər və elmlərin bölgüsü» və aşağıdakı üç məqalədən ibarətdir:

1 – Əxlaqın saflaşdırılması haqqında;
2 – Evqurma (evdarlıq elmi) haqqında;
3 – Ölkəni (şəhərləri) idarəetmə qaydaları haqqında.

Birinci məqalə iki hissə, on yeddi fəsildən; ikinci məqalə beş fəsildən və üçüncü məqalə səkkiz fəsildən ibarətdir.

«Əxlaqi-Nasiri»nin birinci məqaləsi əxlaqın saflaşdırılmasına həsr olunmuşdur. Tusi əxlaq elmini ilahiyyata daxil olan elmlərdən biri kimi təqdim edərək bildirir ki, hər bir elmin mövzusu, əsas və hədəfləri olduğu kimi, əxlaq elminin də müəyyən mövzu, əsas və hədəfləri vardır. Əxlaq elminin mövzusu insani nəfsdir – insanın iradəsindən asılı olan yaxşı və təriflənən, qəbahətli və yaramaz işlərin hamısı onunla əlaqədardır.

İkinci fəsildə Tusi insani nəfs və ya nəfsi-natiqədən bəhs edir. Alimin fikrincə, insani nəfs elə bir sadə cövhərə (substansiyaya) deyilir ki, özü də daxil olmaqla, ağılın dərk etdiyi hər nə varsa, hamısı onun sayəsində olur... Alim nəfsin varlığının sübutunu dəlilə ehtiyacı olmayan, aşkar bir məsələ hesab edir. Belə ki, ağıllı adamlar üçün ən aşkar və ən aydın dəlillər onların özlərinin varlığıdır.

Nəfsin özünün özü ilə dərk edilməsi məsələsini Tusi belə sübut edir ki, nəfs özünü tanıyır və bunu bilir. Özü-özünü tanıdığı halda, özünü tanımaq üçün başqa bir vasitəni özü üçün vasitəçi etməsi doğru olmaz. Tusi vacib olan məsələlərdən sonuncusunun – nəfsin hiss orqanlarının heç biri ilə hiss edilə bilməməsi məsələsinin şərhində belə yazır: Hiss orqanları yalnız cisim və cismani olanları dərk etdiklərindən nəfsi dərk edə bilməzlər.

Üçüncü fəsildə insani nəfs qüvvələrinin sayı və onların başqa qüvvələrdən fərqləndirilməsindən bəhs edən Tusi nəfsi hər birinin özünəməxsus xüsusiyyət və özəllikləri olan 3 növə – nəbati nəfs, heyvani nəfs və insani nəfsə ayırır və onların hər birinin qüvvələrini qeyd edir.

Tusi digər qüvvələrə, məsələn, qida, boy və s. kimi qüvvələrə də işarə edərək onların əməllərinin öz fitrət və təbiətlərindən irəli gəldiyini, iradə və biliyin burada heç bir rol oynamadığını qeyd edir. Tusi insanın ən yüksək insani mərtəbəyə çatmasının yolunu onun öz iradə, şüur və ağlından istifadə bacarığında görür. Əgər insan doğru və məqsədəuyğun yolu seçərsə, tədriclə elm, mədəniyyət və hikmətə yiyələnərsə, təkamülə qadir fitri istedadları onu bir mərtəbədən o biri mərtəbəyə, bir dərəcədən o biri dərəcəyə yüksəldər.

Nəfsin təkamül və tərəqqisi nəzəriyyəsi, islam mütəfəkkirləri və alimləri üçün çox mühüm və ali bir məsələ olmuş və Qurani-Kərimin «ət-Tin» surəsinin 4-cü və 5-ci ayələrindən götürülmüşdür:

لَقَدْ خَلَقْنَا الْإِنسَانَ فِي أَحْسَنِ تَقْوِيمٍ ثُمَّ رَدَدْنَاهُ أَسْفَلَ سَافِلِينَ

/Biz insanı ən gözəl biçimdə yaratdıq; Sonra da onu (kafiri) qaytarıb rəzillərin rəzili edərik./

Tusi beşinci fəsildə insani nəfsin kamilliyi və naqisliyinin mahiyyətini geniş izah etmişdir. Alimin fikrincə, insanda özünə xas üstün xüsusiyyətlər mövcuddur və insan məhz buna görə digər varlıqlardan seçilir.

Altıncı fəsildə Tusi insani nəfsin kamilliyinin, eləcə də Haqqa müxalif olan insanların naqisliyinin nədə olması və buna bənzər məsələlərdən bəhs edir. Tusi nitq nəfsində iki qüvvə – elmi və əməli qüvvə olduğu üçün, insanın kamilliyinin də «elmi» və «əməli» olduğunu qeyd edir. İnsanlarda üç nəfsin – 1) «dun» (aşağı), yəni heyvani nəfs (bəhimi); 2) «övsat» (orta), yəni yırtıcı vəhşi nəfsi (səboi) və 3) «əşrəf» (ən şərəfli), yəni mələk nəfsi (mələki) olduğunu qeyd edən Tusi bu məfhumları Qurani-Kərimdə «əmmarə», «ləvvamə» və «mütməinnə» adlandırılmış məfhumlarla müqayisə edir. Bu müqayisədən anlaşılır ki, Tusinin düşüncələri islam alimlərinin fikirləri ilə üst-üstə düşür.

Nəfsin rəzil sifətlərdən təmizlənməsi və onların yerini gözəl sifətlərə verməsi əxlaq elminin əsasını təşkil edir. Nəfsin təzkiyəsi insanın əbədi xeyir və səadətə çatmasına aparır.

Tusi Aristotelin baxışlarını nəql etdikdən sonra səadət mövzusu ilə bağlı iki əsas məqama diqqət yetirir:

1. Alim səadətin üç növ olduğunu bildirir: nəfsi səadət, bədəni (cismani) səadət və mədəni səadət.

Nəfsi səadət odur ki, insan öz vücud gövhərini tanıya, ilahi əxlaqa və əbədi ləzzətə çata bilsin. Nəfsani səadət əxlaqın saflaşdırılması elmi (etika), məntiq elmi, riyaziyyat elmi, təbiət elmi və ilahiyyat elmi, həmçinin ilahi əmrlərin yerinə yetirilməsi vasitəsilə əldə edilə bilər.

Beşinci fəsildə Tusi fəzilət cinslərinə zidd olan rəzilətdən bəhs edir. Fəzilətlər dörd cins olsa da, onların ziddi olan rəzilət cinslərinin sayı səkkizdir. Yəni, hər bir fəzilət cinsinə zidd iki rəzilət cinsi vardır. Əslində, hikmətin ziddi – avamlıq; şücaətin ziddi – ağciyərlik; iffətin ziddi – çılğınlıq; ədalətin ziddi – zülmkarlıqdır. Tusi fəzilətin hər cinsinin özlüyündə müəyyən həddi olduğuna istinad edərək, bu həddin artıb-azalması səbəbilə hər hansı bir fəzilətin rəzilətə çevrilə bilmə ehtimalından bəhs edir. Fəzilət baxımından yerinə yetiriləcək işlərdə ləngimək, ya əksinə, məsləhət olmayanlara riayət etmək fəzilətin rəzilətə çevrilməsinə səbəb olur. Başqa sözlə desək, fəzilət – «mərkəz»də, onun ziddinə olan rəzilətlər isə «ətraf»dadır. Hər fəzilətin qarşısında sonsuz rəzilət olar, çünki mərkəz məhdud, ətraf isə naməhduddur. Deməli, fəzilət mərkəzdə yerləşməklə sayı birdir, onun ifratı və çatışmazlığından meydana gələn rəzilətlərin sayı isə ikidir. Tusi dörd fəzilət cinsi olmasını nəzərə alaraq, bu fəzilətlərə zidd rəzilətlərin sayının səkkiz olduğunu bəyan edir [10, 88, 89; 87, 117, 118].

Tusi insanın «səadət»ə çata bilməsi yolunun yalnız təbiətində hikmət olan zövqlərdən istifadə etdikdə çata biləcəyini iddia etdiyi üçün, təbiətin növlərini və xoşbəxtlərə xas zövqlərin də şərhini verməyi məqsədəuyğun hesab edir. Alim insanların təbiətini işlərinin son məqsədi baxımından üç yerə bölür:

1. «Ehtiras» təbiəti – bunun fəaliyyətinin son məqsədi «şəhvət nəfsi» olur;

2. «Kəramət» təbiəti – bunun fəaliyyətinin son məqsədi «qəzəb nəfsi» olur;

3. «Hikmət» təbiəti – bunun fəaliyyətinin son məqsədi «əql nəfsi» olur;

Birinci məqalənin ikinci hissəsində Nəsirəddin Tusi əxlaqın saflaşdırılmasının məqsədlərindən bəhs edir. Bu məqalə on fəsildən ibarətdir.

Birinci fəsildə Tusi xasiyyətin mahiyyəti, həddi və əxlaqın dəyişilməsinin mümkünlüyü haqqında düşüncələrini bəyan edir. Tusi xasiyyəti ağıl və düşüncəyə ehtiyacı olmadan, nəfsi asanlıqla fəaliyyətə məcbur edən fitri xüsusiyyət hesab edir. Alimin fikrincə, xasiyyət bir növ adətdir, təbiət deyil.

İkinci fəsildə Tusi əxlaqın saflaşdırılmasının nə qədər şərəfli bir iş olmasından bəhs edir. Bu fikrini alim belə əsaslandırır ki, bu dünyadakı mövcudatın ən şərəflisi insan olduğu üçün, onu kamilliyə yüksəltmək məqsədini güdən sənət də dünya sənətləri arasında ən şərəflisi hesab olunmalıdır.

Üçüncü fəsildə Tusi əxlaq kəramətlərinə daxil olan fəzilət cinslərinin sayından bəhs etmişdir. Alim bildirir ki, insan nəfsində üç qüvvə mövcuddur və bu qüvvələrin iradəsindən asılı olaraq müxtəlif nəticələr əldə edilir bunlardan biri qalib gəldikdə, digərləri ya məğlub, ya da məhv edilir.

Birinci qüvvə – «nitq qüvvəsi»dir, ona «mələk nəfsi» də deyilir. Bu qüvvə fikirləri və həqiqətləri ayırd edə bilmək, onlar haqqında fikir bildirməyin başlanğıc qüvvəsidir. İkinci qüvvə – «qəzəb qüvvəsi»dir, ona «səboi nəfs» (yırtıcılıq nəfsi) də deyilir. Bu qüvvə qorxu və vahiməyə üstün gəlmə, yüksək məqama çatmanın başlanğıc qüvvəsidir. Nəhayət, üçüncü qüvvə – «şəhvani qüvvə»dir ki, bu qüvvəyə «bəhimi qüvvə» (heyvani) də deyilir. Bu qüvvə isə şəhvət, yemək-içmək və bu kimi əmrlərin başlanğıc qüvvəsidir.

Daha sonra alim nəfsin iki qüvvəsindən söz açır: zati idrak qüvvəsi və başqa vasitələrlə təhrik qüvvəsi. Bunların da hər birini daha iki şöbəyə ayıran Tusi zati idrak qüvvəsinə – nəzəri və əməli qüvvəni, başqa vasitələrlə təhrik qüvvəsinə – dəf, yəni «qəzəb» və «cəzb», yəni «şəhvət» qüvvələrini aid edir. Bütün bunlar nəzərə alındıqda, belə bir nəticə əldə edilir ki, nəfsin dörd qüvvəsi vardır və bu qüvvələrə müvafiq olaraq da fəzilət yaranır. Demək, fəzilətlərin də sayı dörddür:

1. Nəzəri qüvvənin saflaşdırılması, yəni «hikmət»;
2. Əməli qüvvənin saflaşdırılması, yəni «ədalət»;
3. Qəzəb qüvvəsinin saflaşdırılması, yəni «şücaət»;
4. Şəhvət qüvvəsinin saflaşdırılması, yəni «iffət».

Dördüncü fəsildə Tusi, fəzilət cinslərinə daxil olan növlər haqqında geniş məlumat verir. Alim burada «hikmət» cinsinin yeddi növündən bəhs edir: zəka, dərk sürəti, zehin aydınlığı, öyrənmə asanlığı (diqqət), ağıl gözəlliyi, hafizə, hazırcavablıq.

Beşinci fəsildə Tusi fəzilət cinslərinə zidd olan rəzilətdən bəhs edir. Fəzilətlər dörd cins olsa da, onların ziddi olan rəzilət cinslərinin sayı səkkizdir. Yəni, hər bir fəzilət cinsinə zidd iki rəzilət cinsi vardır. Tusi dörd fəzilət cinsi olmasını nəzərə alaraq, bu fəzilətlərə zidd rəzilətlərin sayının səkkiz olduğunu bəyan edir. Bundan başqa, insan yaşaması və davamı üçün nəslini artıra

biləcək bir ciftə (cütlüyə) də ehtiyac duyar. Bu səbəbdən ilahi hikmət elə bir təbiət yaratmışdır ki, bir kişi bir qadını özünə cift seçər, beləliklə həm mənzili və başqa şeyləri qoruyan tapılar, həm də nəsli artırmağa imkan yaranar. Artıq nəslin davamedicisi dünyaya gəldikdən sonra tərbiyəsi düz olmazsa, böyüdükdə zəhməti yenə ata-ananın üzərinə düşər. Və insanların sayı bu nəsil artırma yolu ilə artdıqca onların ehtiyaclarını ödəmək, qidalarını çatdırmaq çox çətin olar, xidmətçilərə ehtiyac yaranar, mənzilin rüknünü təşkil edən bu ailə üzvlərinin məişətini nizama salmaq məsələsi ortaya çıxar.

Tusi yeddinci fəsildə digər fəzilətlərə nisbətən ədalətin daha şərəfli olmasından, onun xüsusiyyətləri və növlərindən bəhs edir. «Ədalət» sözünün məna baxımından «bərabərlik» və «tarazlıq» sözü ilə bağlılığını qeyd edən alim, ədaləti işlərdə bərabərlik və tarazlığa riayətdə görür.

Həyatda nizam məsələlərində «ədalət» anlayışını üç qismə ayırmaq olar: mal və sənətə aid olanlar; müamilə və mübadiləyə aid olanlar; məcburiyyət olan işlərə (tərbiyə və danlaq kimi).

Tusi səkkizinci fəsildə fəzilətlərə yiyələnmə və səadətin dərəcələrindən bəhs edir. Alim «əxlaqın saflaşdırılması»nı və «fəzilətlərin kəsbi»ni sənətə aid edir və bu sənətin təbiətdən öyrənilməsini doğru bilir. Yəni, insanın ilk anlardan (nütfədən) bədəninin, xüsusiyyətlərinin əmələgəlmə prosesi «əxlaqın saflaşdırılması»nda və ya «əxlaqın tərbiyəsi»ndə tətbiq edilməlidir.

Doqquzuncu fəsildə fəzilətlərin mühafizəsinin edilməsinin rəhni olan nəfs sağlamlığından danışılır. Tusi nəfsi sağlam və fazil olan, səadət əldə etməyə, həqiqi elmlərə yiyələnməyə can atan insanın bu vəziyyəti qoruyub saxlaya bilməsi üçün müəyyən işlər görməsini, lazımi tədbirlərə əl atmasını mühüm sayır.

İkinci hissənin sonuncu – onuncu fəslində Tusi rəzilətlərin aradan qaldırılması ilə nəfsi xəstəliklərin müalicəsi yollarını açıqlayır. Alim rəzilətlərin müalicəsində, tibbdə olduğu kimi, xəstəliklərin öz ziddi ilə müalicəsi üsulunun əsas tutulmasını tövsiyə edir. Xəstəliklərin müalicəsində qayda-qanun belədir: əvvəlcə xəstəliyin nə olduğu təyin edilir, sonra onun səbəbləri aydınlaşdırılır, daha sonra isə müalicəyə başlanır. Nəzəri qüvvə xəstəlikləri arasında üç növ ən ağırıdır: 1) «ifrat»a aid «heyrət»; 2) «çatışmazlığ»a aid «sadə cəhl»; 3) «korlanma» və «fəsad»a aid «mürəkkəb cəhl». Fəslin növbəti paraqrafında Tusinin evdarlıq elmi haqqında dini-fəlsəfi baxışları araşdırılır.

«Əxlaqi-Nasiri» əsərinin ikinci məqaləsi evdarlıq elmindən bəhs edir və beş fəsildən ibarətdir. Mənzilə olan ehtiyacın səbəbi, onun əsasları və ən mühüm cəhətlərindən bəhs edən birinci fəsildə Tusi ilk öncə insanın yaşamaq üçün yemək əldə etməsinə toxunur. İnsanlar digər heyvanlar kimi yalnız su və otla qidalana bilməz, bu səbəbdən təbiət tərəfindən bəxş edilən su və otdan fərqli bir qida əldə etmək məcburiyyətindədirlər. Insan qidası peşəçiliklə məşğul olmadan, yəni əkmədən, biçmədən və s. əmələ gəlməz. Bundan başqa, insan hər gün qida əldə edə bilməz, o, müəyyən ehtiyat toplamalı, eləcə də bu ehtiyatı saxlayacaq bir məkan əldə etməlidir.

Mənzilin, ailənin rüknləri beşdir: ata, ana, övlad, xidmətçi və azuqə. Hər çoxluğun nizama salınması onun vahidlərinin düzülüşündən asılı olduğu kimi,

mənzilin, yəni evin, ailənin də nizama salınması ona daxil olanların düzülüşü haqqında sənətlə müəyyənləşdirilir. Evdarlıq sənətinin ümumi əsası təbibin insan bədəni tərkibləri arasında müvazinəti nəzarətdə saxlamasına bənzəyər. Bu müvazinət bədənin sağlamlığına, fəaliyyət bacarığının kamilliyinə dəlalət edər. O pozulduqda sağlamlıq da əldən gedər.

Kitabın ikinci fəsli siyasət (idarəetmə), mal toplamaq qaydalarından bəhs edir. Tusi mala üç baxımdan yanaşır: gəlir (ticarət kimi), mühafizə (miras kimi) və çıxar (bəxşiş və hədiyyə kimi). Gəlir əldə etmək üçün, əsasən, üç şərti yerinə yetirmək gərəkdir: birinci – zülmə yol verməmək (pulda, ölçüdə, çəkidə aldatmamaq, əliəyrilik və oğurluq etməmək); ikinci – rüsvayçılığa yol verməmək (təlxəklik, yaltaqlıq etməmək) və üçüncü – alçaqlığa yol verməmək. Sənətlər də üç cür olur: şərəfli, alçaq və orta sənətlər.

Şərəfli sənətlər bədənin deyil, nəfsin xeyrinə olan sənətlərdir. Alçaq sənətlər özlüyündə üç yerə bölünür: bütün xalqın ziyanına aid olanlar, fəzilətlərdən birinin ziddinə aid olanlar, məzacın nifrətinə səbəb olanlar.

İkinci məqalənin üçüncü fəsli ailə dolandırmaq və evdarlıq qaydalarından bəhs edir. Tusiyə görə, evlənməyin iki səbəbi olmalıdır – malın mühafizəsi və nəslin davamı. Alim o arvadı yaxşı hesab edir ki, o, malda, böyüklükdə, ev dolandırmaqda kişinin şəriki olsun, ər olmadıqda onun yerini tutsun, ağıl, dəyanət, ismət, riqqət və nəzakətdə, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda və s. bu kimi keyfiyyətlərdə misli olmasın, qohum-əqrəba yanında vüqarlı, hörmətli hesab edilsin, doğumlu olsun, tərbiyə verməkdə, səliqədə, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə mahir olsun və mehribanlığa və şux təbiətə də sahib olsun ki, ərinin könlünü açıb, dərdini dağıda bilsin. Bu xüsusiyyətlərin bəzisi olmaya da bilər, lakin ağıl, ismət, iffət və həya vacibdir. Tusinin fikrincə, arvad saxlamaq şərtlərini bilməyən kişi gərək heç evlənməsin, belə ki, bu məsələdə tədbirsizlik onun ölümünə səbəb olar.

Dördüncü fəsil övlad saxlamaq və onları tərbiyə etmək qaydalarından bəhs edir. Tusi uşağa ilk növbədə yaxşı bir ad qoyulmasına işarə edir, çünki uşağa namünasib ad qoyularsa, o, ömrü boyu bu addan xəcalət şəkər. Sonrakı mühüm məsələ ona yaxşı, ağıllı və sağlam bir dayə tapılmasıdır, çünki pis adət və xəstəliklərin çoxu uşağa südlə keçər. Süddən ayrıldıqdan sonra isə əxlaqı korlanmağa vaxt tapmamış onun tərbiyəsi ilə məşğul olmaq gərəkdir. Tusiyə görə, tərbiyənin ən birinci şərti uşağı onun təbiətini korlaya biləcək insanlardan və şeylərdən uzaq tutmaqdır. Tusi üçün ən mühüm məsələlərdən biri uşağın özündən böyüklərə və əsasən də, öz müəlliminə hörmət etməyi bacarmasıdır.

Tusi bu fəsildə ata-ananın haqqını yerinə yetirmək, onların razılığını, halallığını qazanmaq yollarından da danışır. Tusinin fikrincə, Allahın borcunu yerinə yetirdikdən sonra, valideynlərin də borcunu yerinə yetirmək, onları qorumaq, dərdlərinə əlac etməkdən artıq bir fəzilət ola bilməz. Hətta, alimin fikrincə, valideynin borcunu yerinə yetirmək Allah qarşısında borcdan daha vacibdir. Fəslin üçüncü paraqrafı Tusinin ölkələri (şəhərləri) idarəetmə qaydaları haqqında baxışlarının təhlilinə həsr olunmuşdur.

«Əxlaqi-Nasiri»nin sonuncu – üçüncü məqaləsi ölkələri (şəhərləri) idarəetmə qaydalarından bəhs edir və səkkiz fəsildən ibarətdir.

Birinci fəsildə Tusi xalqın təməddünə (icma halında yaşamağa) ehtiyacının səbəbini göstərmiş, bu növ elmin mahiyyət və fəzilətlərinin şərhini vermişdir. Alimin fikrincə, insan dünyadakı bütün sənətlərə yiyələnə bilməz, çünki onun ömrü buna vəfa etməz və bu baxımdan bir-birinə xidmət üçün digər insanlara möhtacdır. Bir sözlə, dünya mövcudatının ən şərəflisi olan insanın öz nəslini mühafizə etmək və özünü qoruyub saxlamaq üçün bütün köməklərə, o cümlədən öz həmcinsinin köməyinə ehtiyac vardır.

Tusi Aristotelin sözlərinə istinadən siyasəti dörd qismə ayırır: ölkə siyasəti, qələbə siyasəti, kəramət siyasəti, camaat siyasəti.

Ölkə siyasəti – camaatı elə dolandırmağa deyərlər ki, bundan onların fəziləti artsın; buna «füzəla siyasəti» də deyilir.

Qələbə siyasəti – nakəs adamlar haqqında görülən tədbirlərə deyərlər, bunlara «nakəslər siyasəti» də deyilir.

Kəramət siyasəti – camaatı elə idarə etməyə deyərlər ki, bunun nəticəsində onların kəramətləri inkişaf edib artsın.

Camaat siyasəti – ilahi namus (ədalətli vicdan) əsasında tərtib edilmiş, camaatı idarə edən müxtəlif qayda-qanuna deyərlər.

Sonuncu məqalənin ikinci fəslində icmaların əlaqəsi üçün zəruri olan məhəbbətin fəziləti və növlərindən bəhs olunur. Tusi, insanların bir-birinin zəruri köməyinə möhtac olduqlarına, təklikdə bir kamala çata bilmədiklərinə işarə edir. Bu baxımdan, bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zərurəti meydana çıxar. Tusi üçüncü fəsildə icmaların növləri və şəhərlərin əmələ gəlməsindən danışır. İnsanın iradi işləri iki yerə: xeyirlərə və şərlərə bölündüyündən, ictimalar da buna uyğun olaraq iki yerə bölünür: səbəbi xeyir olanlar və səbəbi şər olanlar. Səbəbi xeyir olanlara «fazilə», səbəbi şər olanlara «qeyri-fazilə» adı vermişlər. Alim fazilə icmalara yalnız bir növ aid edir, çünki haqq çoxluqdan azaddır, bu səbəbdən xeyir işlərin də yolu birdən artıq ola bilməz. Demək, peyğəmbərlərin əsrlər boyu çalışaraq, Allahın kəlamı ilə insanlarda oyatmağa çalışdıqları gözəl və bəyənilən sifətlərin yenidən insanlıq arasında yayılması və nəfsin rəzil sifətlərdən təmizlənməsi üçün əxlaqi dəyərlərin, bu dəyərlərin bəşəriyyətə bəxş edə biləcəyi xoşbəxt cəmiyyət həqiqətini insanların dərk etməsi üçün yeni-yeni əsərlərin yazılması ilə yanaşı, qədim filosoflara, üləmalara, dahi mütəfəkkirlərə aid olan fikir və düşüncələrin də təhlili böyük əhəmiyyət daşıyır. Müdafiəyə təqdim olunmuş dissertasiya işinin də əsas məzmununu əxlaq elminin dinlə bağlılığını, din, iman olan yerdə əxlaqi dəyərlərə hörmətin də olduğunu göstərmək məqsədi ilə Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsərindəki dini-fəlsəfi baxışların araşdırılması təşkil edir.

Beşinci fəsildə şah xidmətində olmaq və rəiyyətlik qayda-qanunları şərh edilir. Belə qaydalara Tusi, onlara məsləhət verməkdə heç bir şeyi əsirgəməməni, heç vaxt qaşqabaq tökməməyi, gərgin anlarda, ağır günlərdə, dini və dövləti, xalqı və milləti mühafizə etmək yolunda can və malını ona qurban verməyi aid edir.

Sonuncu məqalənin altıncı fəslində Tusi sədaqətin fəziləti və sədaqətli adamlarla davranış qaydalarından bəhs edir. Alimin fikrincə, insan öz təbiəti etibarilə ictimai olduğundan onun tam xoşbəxtliyi sədaqətli insanların, yəni dostların xoşbəxtliyindən asılı olar. Tamlığı digərlərinin kamiliyi ilə əlaqədar olan kəs heç vaxt təklikdə kamala çata bilməz. Bu səbəbdən, özünə sədaqətli həmkar tapmış insan kamil və xoşbəxt adam hesab edilər.

Yeddinci fəsil xalqın bütün təbəqələri ilə davranış qaydalarından bəhs edir. Bu bəhsi çox mühüm hesab edən Tusi bu davranış qaydalarını geniş şərh etmişdir. Alim qeyd edir ki, hər bir insan gərək öz vəziyyətinə baxıb, xalqın bütün təbəqələri ilə müvafiq münasibətdə olsun. Bu münasibətlər üçdən artıq deyil. Birinci halda təbəqədən yuxarı olar – insan öz mövqeyini mühafizə etməyə çalışmalı, aşağı enməyə meylil göstərməməlidir. İkinci halda bərabər olar – belə olan halda insan o mərtəbədən yuxarı qalxmağa çalışmalıdır. Üçüncü halda aşağı olar ki, bu zaman insan həmin o aşağı təbəqədən çıxmağa can atmalıdır.

Tusi, nəhayət, «Əxlaqi-Nasiri»nin sonuncu məqaləsinin axırıncı – səkkizinci fəslində bütün fəsillər üçün faydalı hesab etdiyi Platonun vəsiyyətlərini yığcam şəkildə verir. Platon onları şagirdi Aristotelə ünvanlamışdır və bu gün də öz tərbiyəvi, mənəvi və ictimai əhəmiyyətini itirməmişdir. Platon öz şagirdinə – əslində isə şagirdinin timsalında bütün bəşəriyyətə belə xitab edir:

Beləliklə, bütün bu şərhlərdən aydın olur ki, Tusinin «Əxlaqi-Nasiri» əsərində bəyan edilmiş dini-etik və fəlsəfi düşüncələri ideal cəmiyyət və ideal dövlət yaradılmasına xidmət edir. Əsər boyu dəfələrlə ədalətin əhəmiyyətinə işarə edən alim insan fəzilətinin kamilliyi ilə ədalətli bir cəmiyyət yaratmağın mümkünlüyünə inanır. Ədalətin bərqərar olduğu bir cəmiyyət isə bəşəriyyətin mənəvi xilası, sülh və əmin-amanlıq deməkdir. Bəşər övladı da peyğəmbərlərin buyurduqları, alimlərin təyin və şərh etdikləri əxlaqi fəzilətləri, yüksək insani keyfiyyətləri özlərində tərbiyə edib kamilləşdirməklə, nəfslərini pislik, çirkinlik və şərdən, bəd əməllərdən təmizləməklə mənəvi və əbədi rahatlıqla yanaşı, bəşəriyyətin daima axtarışında və arzusunda olduğu xoşbəxt və sağlam bir cəmiyyətə qovuşa bilər.

Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə öz əksini tapmışdır.


1. Xacə Nəsirəddin Tusi və onun əsərləri //Filologiya məsələləri №3. "Elm və Təhsil" Bakı – 2010, səh. 448-457.
2. "Əxlaqi-Nasiri" əsərində "nəfs" məsələsinə baxış//Azərbaycanın görkəmli şərqşünas alimi, əməkdar elm xadimi, professor Mübariz Əlizadənin 100 illik yubileyinə həsr olunmuş "Şərq filologiyasının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları Bakı – 2011, səh. 197-200.

3. Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində "səadət" və "fəzilətlər" haqqında//Azərbycan Respublikası. Dini qurumlarla iş üzrə Dövlət Komitəsi, "Dövlət və Din" ictimai fikir toplusu, may-iyun, 2012, səh. 142-147.

4. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində dini-əxlaqi baxışları//Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin elmi məcmuəsi, №17, iyun (Haziran) 2012, səh. 117-123.

5. Общая характеристика произведения «Ахлаги-Насири» (Насирова этика) Хаджи Насреддина Туси//Абой атындагы Казак улммык педагогикалык университети Казахский национальный педагогический университет имени Абая. «Хабаршы Вестник» «Филология гылымдары» сериясы. Серия «Филологические науки» №1(39), 2012 . Алматы, стр. 101-107.

6. Nəsirəddin Tusi "nəfs" haqqında ("Əxlaqi-Nasiri" əsasında) //AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmalar"ı. IX buraxılış. Bakı, 2012, s.507-511.

**Лейла Хосров кызы Рахими**

## Религиозно-этические вопросы в сочинении «Ахлаки-Насири» Насираддина Туси

### Резюме

Диссертация посвящена исследованию вопросов исламской этики в сочинении «Ахлаки-Насири» всемирно известного азербайджанского ученого – энциклопедиста Насираддина Туси.

Работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во «**Введении**» отмечается актуальность исследования, определяются обьект, цель и задачи работы, указывается научная новизна, практическая значимость и методология исследования.

**Первая глава** называется «Жизнь и творчество Насираддина Туси, в которой рассматриваются вопросы, связанные с общественно-политической жизни эпохи Туси, анализируются источники и исследования об ученом. Здесь также освещаются жизнь и деятельность Туси и даются сведения об известных его современниках, наставниках и учеников.

Во **второй главе,** разделенной на шесть параграфов, исследуются особенности исламской этики. Здесь рассматриваются сущность, польза, цель и задачи морали в исламе и вопросы нравственности. В данной главе особое внимание уделено анализу таких философских понятий, как счастье, любовь, справедливость, политика с точки-зрения ислама.

**Третья глава**, составляющая как по объему, так и по содержанию основу диссертации называется «Религиозно-этические вопросы в сочинении «Ахлаки-Насири» Насираддина Туси». Здесь всесторонне исследуются религиозно-этические взгляды Туси, которые охватывают различные сферы социально – политической жизни исламского общества. В работе детально анализированы этические взгляды ученого, охватывающие все аспекты исламского общества времени Туси.

В **заключении** излагаются основные вoводи диссертации и указывается значение исследуемого сочинения Туси с точки зрения исламской этики.

**RahimiL.Kh.**

**Religious-ethical problems in "Akhlaq-i Nasiri" ("The Nasirean Ethics") ofNasiraddinTusi**

## SUMMARY

The dissertation devoted to the investigation ofIslamic ethicsin "Akhlaq-i Nasiri", written bythe famous Azerbaijani scientist-encyclopaedistsNasiraddinTusi.

Dissertation consists of the introduction, three chapters, conclusion and the list of used literature.

The actuality of dissertation is grounded in introduction. Also the degree of its studies is investigated, the sources, aims and research tasks are determined, the theoretical methodological basis is specified and scientific novelty and practical value of the work is given in introduction

The first chapter is called"Biography and works of NasiraddinaTusi". This chapter provides an overview of the social and political situation of Tusi'sepochand analysesthe sources and researches about this famous scientist and also gives information about his life and works, his well-known contemporaries, tutors and students.

The second chapter is called “Islamic ethics” and consists of six parts. This chapter researches the features of Islamic ethics. The nature, use, purpose and objectives of morality in Islam and issues of morality are examined in this chapter too.Also there is given the analysis of philosophical concepts such as happiness, love, justice, politicsfrom the point of view of Islam.

The third chapter, constituent both on volume and on maintenance basis of dissertation is called “Religious-ethical problems in “Akhlaq-i Nasiri” (“The Nasirean Ethics”)of NasiraddinTusi” and consists of two parts.The religious-ethics view of Tusi, which engulf different spheres of social and political life ofislam society are comprehensively researched here.This chapter also examines in detail ethical views of scientist, covering all aspects of Islam society of epoch of Tusi.

In the conclusion the research and the results are summarized.